Tarix və onun problemləri, №3 2009

Ə.Q.QASIMOV
*AMEA Tarix İnstitutu*

# NAXÇIVANIN ERMƏNİ TƏCAVÜZÜNDƏN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

Moskvanın himayədarlığından istifadə edən erməni millətçiləri və şovinist dairələri Azərbaycanın Qarabağ bölgəsini ələ keçirmək məqsədi ilə təcavüzkar hərəkətlərə başladılar. Üzdəniraq «Dağlıq Qarabağ» problemi Azərbaycanda, o cümlədən Ermənistanla həmsərhəd olan Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi vəziyyətə öz mənfi təsirini göstərdi. Ermənistan silahlı quldur dəstələrinin və SSRİ Müdafiə Nazirliyinin 7-ci ordu dəstələrinin vasitəsi ilə 1990-cı ilin yanvarında Azərbaycan ərazisinin bir hissəsi – Naxçıvan MR-in Kərki kəndi işğal edildi. Muxtar respublikanın Sədərək, Havuş, Kərməçataq, Yuxarı Buzqov, Şada kəndləri və digər sərhədyanı yaşayış məntəqələri aramsız hücumlara məruz qalaraq dağıdılmış, dinc insanlar həlak olmuş, girov götürülmüş, dövlət mülkiyyətinə və şəxsi mülkiyyətə xeyli ziyan vurulmuş, əhalinin dinc həyatı tamamilə pozulmuşdu.

Naxçıvana erməni təcavüzü barədə Mərkəzə, Azərbaycan rəhbərliyinə dəfələrlə məlumat verilməsinə baxmayaraq, heç bir tədbir görülməmiş, əksinə qonşu respublika tərəfindən silahlı basqınların sayı daha da artmışdı. Naxçıvanda yerləşən sovet ordu hissələri isə mərkəzin siyasətinə uyğun olaraq Azərbaycanın ərazisini ermənilərin silahlı təcavüzündən qorumaq üçün heç bir cəhd göstərmir, əksinə bir sıra hallarda təcavüzkara hərbi-texniki, mənəvi yardım göstərirdi. Ermənistan ərazisindən keçən və Naxçıvanı Azərbaycana birləşdirən elektrik, qaz, telekommunikasiya xətlərinin, avtomobil və dəmiryolunun bağlanması nəticəsində muxtar respublika iqtisadi, nəqliyyat və informasiya blokadasına alınmış, ümumiyyətlə, xarici aləmdən təcrid vəziyyətinə düşmüşdür. İqtisadi və siyasi böhran içində çarpışan, erməni təcavüzü qarşısında əliyalın və köməksiz qalan Naxçıvan real məhv olmaq təhlükəsi ilə üz-üzə dayanmışdı. Təəssüf ki, Naxçıvanda genişlənən milli-azadlıq və demokratik hərəkatdan təşvişə düşən o zamankı Azərbaycan rəhbərliyi də Naxçıvana bəslədikləri düşmən münasibəti ilə erməni «dəyirmanına su tökür»dü.

Yalnız cahanşümal siyasətçi və strateq Heydər Əliyevin müdrikliyi və qətiyyəti bu müqəddəs vətən torpağını düşmən caynağından xilas etdi, onu Azərbaycana qaytardı. Tale Heydər Əliyevi bu regiona göndərməklə Naxçıvanı Dağlıq Qarabağın və Azərbaycanın digər işğal olunmuş rayonlarının acı aqibətindən qorudu, «Azərbaycanın bu qədim torpağını xilas edən Heydər Əliyev özünə Naxçıvan boyda əbədi, həmişəyaşar abidə ucaltdı» (4, s.9).

Naxçıvan MR Ali Məclisinin sədri seçildikdən sonra Naxçıvan torpağını erməni təcavüzdən qorumaq, insanların təhlükəsizliyini təmin etmək Heydər Əliyevin ən müqəddəs vəzifə borcuna, həyat amalına çevrildi. Onun muxtar respublika rəhbəri kimi qəbul etdiyi hər bir qərar məhz bu vəzifənin yerinə yetirilməsinə xidmət edirdi.

Ali Məclisin sədri kimi onun imzaladığı ilk sənədlərdən biri 7 sentyabr 1991-ci ildə Ali Məclisin Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında qərarı oldu [5, s.544].

Təşəbbüskarı olduğu və Azərbaycan üçün taleyüklü olan bu qərarı imzalayarkən Heydər Əliyev hüquqi müstəvidən kənara çıxmamış, «Azərbaycan Respublikası dövləti müstəqilliyinin bərpa edilməsi haqqında» Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust 1991-ci il tarixli bəyannaməsinə, «Azərbaycan Respublikasının milli özünümü-

dafiə qüvvələrinin yaradılması haqqında» qərarına və Azərbaycan Respublikası prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına istinad etməyi zəruri hesab etmişdir. Bu, onun müdrikliyi ilə yanaşı, dövlətçiliyə, hüquqa nə qədər sadiq olduğunu nümayiş etdirirdi. Həmin sənədi imzaladıqdan sonra ertəsi gün Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gələrək vətənin azadlığı uğrunda canlarını qurban verən igidlərə öz ehtiramını bildirmiş, şəhid ailələrinin üzvləri ilə görüşmüş və qeyd etmişdi ki, onların övladları heç vaxt unudulmayajaq, yaddan çıxmayacaqlar. Şəhid ailələrinə hər cür diqqət və qayğı göstəriləcəkdir [7].

1991-ci il sentyabrın 10-dan 11-ə keçən gecə erməni silahlı quldur dəstələri Naxçıvan Muxtar Respublikası ərazisinə basqın edərək Şahbuz rayonun Yuxarı-Remeşin kəndindən 1033 baş, Ordubad rayonunun N.Tusi adına kolxozundan 1054 baş qoyun aparmış və həmin rayonun sakinləri olan Xəlil Xəlilov və Əşrəf Abbasov adında iki çobanı girov götürmüşlər. Çobanların və sürülərin geri qaytarılması ilə bağlı Ermənistan hüquq-mühafizə orqanlarına edilən tələblər yerinə yetirilmədiyindən Ordubad rayonunun əhalisi Qafan-İrəvan sərnişin qatarını saxlamışdılar. Bu hadisə erməni rəhbərliyini hərəkətə gətirmiş və o zaman Ermənistan Respublikası Ali Sovetinin sədri işləyən Levon Ter-Petrosyan Heydər Əliyevə zəng edərək saxlanılan sərnişin qatarının yola salınmasına köməklik göstərməsini xahiş etmiş, aparılan çobanların, qoyun sürüsünün qaytarılması, cinayətin dərhal araşdırılması üçün tədbirlər görəcəyini vəd etmişdi (4, s.482-483). Lakin Ermənistan rəhbərliyi verdiyi sözə əməl etməmiş, dörd gün davam edən danışıqlar nəticəsində yalnız qoyunların bir hissəsini qaytarmışdır. Sonradan məlum olmuşdur ki, ermənilər tərəfindən X.Xəlilov və Ə.Abbasov vəhşiliklə qətlə yetirilmişdir. Buna baxmayaraq, Heydər Əliyevin şəxsi nüfuzu sayəsində ordubadlılar saxladıqları qatarı buraxmağa razılıq vermiş, bu zaman sərnişinlərindən heç kimə zərər yetirilməmişdir. Erməni quldurlarının qurbanlarını dəfn etdikdən sonra ordubadlılar X.Xəlilov və Ə.Abbasovun Ordubad rayonu ərazisində vəhşiliklə qətlə yetirildiyini nəzərə alaraq həbs edilməsi elan edilmiş dörd cinayətkarın Naxçıvan MR hüquq-mühafizə orqanlarına verilməsini, Dağlıq Qarabağda və Goranboy rayonunda ermənilər tərəfindən girov götürülmüş azərbaycanlıların geri qaytarılmasını, Mehri rayonu ərazisində lokomativ briqadalarının və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsini tələb etmişlər. Heydər Əliyev L.Ter-Petrosyana məlumatında bu tələbləri tam müdafiə etmiş, eyni zamanda törədilmiş cinayət barədə Ermənistan mətbuat orqanlarında rəsmi məlumat verilməsi, ölənlərin cəsədlərinin dərhal qaytarılması, həmçinin Ermənistan rəhbərliyi adından günahsız həlak olan azərbaycanlıların ailəsinə başsağlığı verilməsi tələblərini irəli sürdü (4, s.483-488). Bu şərtlər vasitəçilik missiyası ilə regiona gəlmiş RSFSR Ali Sovetinin deputatları A.Şabat və Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətinin səlahiyyətli nümayəndəsi V.Popova da çatdırılmışdı. Lakin ermənilər öz vədlərinə xilaf çıxaraq yeni azqınlıqlara əl atırdılar. 1991-ci il sentyabrın 19-da Ermənistanın Gorus rayonunda yerləşən Üçtəpə teleradio ötürücüsündən Naxçıvan MR istiqamətində teleradio verlişlərinin ötürülməsi və telefon xətti kəsilmiş, ertəsi gün isə 50-60 nəfərlik quldur dəstəsi Şahbuz rayonunun Biçənək teleradio ötürücü stansiyasına hücum edərək stansiyanı ələ keçirməyə cəhd etmişlər. Bu cinayətkar aksiyalar muxtar respublika əhalisinin yeni qəzəb və etirazına səbəb olmuş, sərhəddə vəziyyət gərginləşmişdi. Elə həmin gün quldurlar Babək rayonunun Yuxarı Buzqov kəndinin sakinləri olan iki çobana hücum etmiş və onlardan birini – Eyvaz Eyvazovu özləri ilə aparmışlar. Ermənilərin bu hərəkətləri arxasında məhz Ermənistanın rəsmi dairələrinin durduğunu yaxşı başa düşən Heydər Əliyev yenidən L.Ter-Petrosyana müraciət edərək Ermənistan ərazisindən edilən quldur hücumlarına təcili son qoyulmasını, girovların geri qaytarılmasını və cinayət törət-

miş Ermənistanın quldur dəstələrinin Naxçıvan MR-in istintaq orqanlarına verilməsini tələb etmişdi (4, s.491-494).

Heydər Əliyevi münaqişədən zərər çəkən hər bir azərbaycanlının taleyi narahat edirdi. Buna görə də, erməni quldurları tərəfindən girov götürülmüş soydaşlarının azad olunması və öz ailələrinə qaytarılması üçün bütün imkan və vasitələrdən istifadə edirdi. Məhz onun Ermənistan rəhbərliyi ilə apardığı gərgin və intensiv danışıqlar nəticəsində Şahbuz rayon sakinləri E.Mədətov, E.Hüseynov, Goranboy rayon sakinləri U.Bayramov, S.Bədəlov erməni əsirliyidən azad edilmişdi (2, v.14-16). Girov düşmüş insanların qohumları da son ümidgahları kimi Heydər Əliyevi görür, öz yaxınlarını erməni əsirliyindən xilas etmək üçün ona müraciət edirdilər.

Naxçıvanın rəhbəri olarkən Heydər Əliyevin ən böyük tarixi uğurlarından biri muxtar respublika ərazisində yerləşən sovet ordusu hissələrinin və sərhəd dəstələrini qansız-qadasız çıxarılmasına, bu zaman onlara məxsus silah-sursatın, texnikanın, əmlakın tamamilə Azərbaycanın ixtiyarına verilməsinə nail olması oldu. Özü də Heydər Əliyev bu mürəkkəb vəzifəni elə incəliklə, özünəməxsus şəkildə həyata keçirmişdi ki, keçmiş MDB məkanında, hətta Şərqi Avropada sovet qoşunlarının çıxarılması zamanı müşahidə olunmuş ekseslər, gərginliklər azacıq da olsun, hiss olunmamışdı.

Heydər Əliyevin Ali Məclisin sədri seçilməsinə qədər Naxçıvanda yerləşən sovet qoşun hissələri ilə yerli əhali, hakimiyyət orqanları arasında münasibətlərində açıq-aşkar gərginlik hökm sürürdü. Ayrı-ayrı hərbçilərin hüquqa zidd hərəkətləri, ermənilərlə əlbir olmaları naxçıvanlılar arasında onlara qarşı böyük narazılıq yaratmışdı. Kərki kəndinin məhz sovet qoşunlarının yardımı ilə işğalı, hərbi texnikanın, silah-sursatın, ermənilərə paylanması və digər hallar əhalinin dərin hiddətinə səbəb olmuşdu. Hərbçilərin qanunsuz hərəkətləri haqqında kifayət qədər faktlar olsa da, bu hərəkətlərin aradan qaldırılması üçün siyasi iradə göstərilmirdi.

Heydər Əliyev muxtar respublikanın rəhbəri seçildikdən sonra hərbçilərlə münasibətlərin nizamlanması, onların hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində çox səmərəli addımlar atmağa başladı. 1991-ci il oktyabrın 26-da Heydər Əliyevin təşəbbüsü ilə Ali Məjlisin sessiyasında Naxçıvan MR ərazisində yerləşən qoşun hissələrinin statusu haqqında məsələ müzakirə olundu və müvafiq qərar qəbul edildi. Qərarda Naxçıvan MR ərazisində yerləşən Sovet İttifaqı hərbi qüvvələrinin statusu ilə əlaqədar bütün məsələləri hərtərəfli öyrənmək və təhlil etmək, onlarla yerli hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətini təkmilləşdirmək, hərbi qulluqçularla yerli əhali arasında münaqişəli halların qarşısını almaq məqsədilə birgə tədbirlər hazırlanması üçün xüsusi komissiyanın yaradılması nəzərdə tutulmuşdu (4, s. 514-516).

Heydər Əliyev öz nüfuzundan istifadə edərək Naxçıvanda yerləşmiş qoşun və sərhəd hissələrinin fəaliyyəti ilə bağlı bütün məsələləri Azərbaycan mənafeyi naminə müdrikcəsinə həll etməyə müvəffəq olmuşdu. Məhz onun qətiyyətli tələblərindən sonra müəmmalı şəkildə 1990-cı ilin sonunda Naxçıvan MR ərazisində yerləşən sərhəd məntəqələrinin Ermənistan ərazisindəki sərhəd dəstələrinə tabe etdirilməsi barədə qərar ləğv edilmiş və onlar yenidən Naxçıvan ərazisində yerləşən 41-ci sərhəd dəstəsinin tabeliyinə qaytarılmışdı.

Heydər Əliyev mütamadi olaraq hərbi komandirlərlə görüşür, onlardan hərbi hissələrin yerləşməsi, sayı, təyinatı və s. məsələlər haqqında yerli hakimiyyət orqanlarını müntəzəm məlumatlandırmağı tələb edirdi.

Naxçıvan MR Ali Məclisinin 26 oktyabr tarixli qərarı böyük əks-səda doğurmuş, bununla əlaqədar Zaqafqaziya hərbi dairəsindən, sərhəd qoşunları qərargahından yük-

sək rütbəli hərbçilər Naxçıvana gəlmişdilər. Heydər Əliyev muxtar respublika rəhbərliyinin hərbi qüvvələrlə bağlı prinsipial mövqeyini onlara da bildirmişdi.

Ali Məclisin 1991-ci il dekabrın 14-16-da keçirilmiş iclasında qoşunların statusu ilə bağlı məsələləri bir daha müzakirə edilmiş, məsələ ilə bağlı komissiyaya konkret təklifləri Ali Məclisə təqdim etməsi tapşırılmışdı [4, s. 515-516].

1991-ci il dekabrın sonlarında geosiyasi proseslərin sürətlə inkişafı muxtar respublikada yerləşən hərbi hissələrin statusu ilə bağlı məsələni sürətləndirməyi zəruri etdi. 1992-ci il yanvarın 2-də Heydər Əliyevin iştirakı ilə Ali Məclisin Rəyasət Heyətində hərbi hissələrin yerli hakimiyyət orqanları ilə münasibətlərinin vəziyyəti ilə bağlı məsələyə baxıldı. İclasda Heydər Əliyev qoşunların statusu ilə bağlı məsələyə dair öz prinsipial mövqeyini bir daha təkrar edərək muxtar respublikada yerləşən hərbi hissələrin yerli hakimiyyət oqranlarına tabe olmaları, hərbiçilərin yerli əhaliyə, onların adət-ənənələrinə hörmətlə yanaşmalarını tələb etmiş, muxtar respublikadan silahların, hərbi texnikanın və avadanlığın aparılmasının yolverilməz olduğunu göstərmişdi [8].

Qəbul edilmiş qərarda Azərbaycan siyasi rəhbərliyinin göstərilmiş məsələlərə qeyri-müəyyən, bəzən də anlaşılmaz münasibəti pislənilmiş, ayrı-ayrı hərbi bölmə komandanlıqlarının qanunsuz hərəkətlərinin muxtar respublikadakı vəziyyəti daha da kəskinləşdirdiyi, xüsusən hərbi sursatın, təsərrüfat əmlakının, talan edilməsi və muxtar respublikadan çıxarılması ilə bağlı çoxlu faktların mövcud olduğu qeyd edilmiş və göstərilmişdi ki, «muxtar respublika ərazisində yerləşən silahlı qüvvə hissələrinin bütün hərbi və təsərrüfat tikililəri, əmlakı, silahları və hərbi sursatları, hərbi və mülki texnikası Naxçıvan Muxtar Respublikasına məxsusdur». Hərbi hissə komandanlıqlarından tələb edilmişdi ki, onların sərəncamlarında olan hər bir şey haqqında beş gün müddətində muxtar respublika Ali Məclisinə məlumat təqdim etməli və Ali Məclisin icazəsi olmadan respublika ərazisindən heç bir şey (hərbçilərin şəxsi əşyaları istisna olmaqla - Ə.Q.) aparılmamalıdır [4, s. 522].

1992-ci ilin əvvəllərindən başlayaraq Azərbaycanda hərbi-siyasi vəziyyət daha da pisləşməyə başladı. Xalqın milli ordu yaratmaq tələbinə Mütəllibov hakimiyyətinin məhəl qoymaması, Dağlıq Qarabağın müdafiəsi ilə bağlı heç bir təsirli addım atmaması nəticəsində azərbaycanlılar yaşayan kəndlər bir-birinin ardınca ermənilər tərəfindən işğal edilirdi. Xojalı soyqırımı, onun ardınca Şuşa və Laçının işğalı bütün Azərbaycanda siyasi vəziyyəti daha da gərginləşdirmişdi. Siyasi qüvvələrin Bakıda hakimiyyət uğrunda mübarizəsi ermənilərin uğurlarını daha da artırırdı. Dağlıq Qarabağın işğalını başa çatdıran ermənilər 1992-ci il mayın 1-də Naxçıvan Muxtar Respublikası ərazisinə hərbi təcavüz edərək bu bölgəni də işğal etməyə can atdılar. Erməni təcavüzü qarşısında silahsız, köməksiz qalan Naxçıvanı yalnız Heydər Əliyevin böyük dühası, siyasi, hərbi və diplomatik bacarığı xilas etdi.

Heydər Əliyevin Ermənistan rəhbərliyi ilə apardığı gərgin danışıqlar nəticəsində hərbi təcavüz müvəqqəti dayandırılsa da, mayın 18-də ermənilər yenidən Naxçıvan ərazisinə hücum edərək Sədərək kəndini ələ keçirməyə çalışmışlar. Təcavüz nəticəsində bir neçə insan həlak olmuş, Şərur rayonun bir neçə kəndindən əhali köçürülmüşdü [3, s.314]. Erməni təcavüzünün qarşısını almaq üçün Heydər Əliyev dünya ictimaiyyətinə, Türkiyə hökumətinə müraciət etdi. Türkiyənin o zamankı rəhbərliyi – baş nazir S.Dəmirəl, Xarici İşlər Naziri H.Çətin, baş nazirin birinci müavini Ə.İnion Heydər Əliyevə telefon etmiş, Naxçıvana xüsusi nümayəndə heyəti göndərmişdilər. Türkiyə hökuməti mayın 18-də gecəyarı toplaşaraq Naxçıvanla bağlı geniş bir bəyanat [6, s.24] vermişdi. Azərbaycanla bütün əlaqələrin kəsildiyi, hərbi, nəqliyyat blokadasında olduğu şəraitdə Naxçıvana Türkiyə hərtərəfli yardım göstərirdi. Naxçıvandakı vəziyyəti dünya icti-

maiyyətinə çatdırmaq üçün Heydər Əliyev xarici ölkələrdən, Rusiyadan müxbirlər dəvət etmiş, onlara bölgədə yaranmış vəziyyət barədə obyektiv məlumat verilmişdi. Bu son dörd il ərzində Dağlıq Qarabağda gedən müharibə ilə əlaqədar xarici və Rusiya mətbuatında geniş yer alan birtərəfli, ermənipərəst xarakterli məlumatlar nəticəsində Azərbaycan əleyhinə yaradılmış informasiya blokadasının yarılmasında mühüm addım idi. Heydər Əliyevin səylərinin nəticəsi olaraq bütün dünya informasiya orqanları Ermənistanın Naxçıvan hücumu barədə məlumatlar vermiş, 57 dövlət Ermənistanın təcavüzkarlığını pisləmiş, NATO xüsusi bəyanatla çıxış etmişdi. Heydər Əliyevin fəaliyyəti nəticəsində dünya ictimaiyyətində düzgün, obyektiv təsəvvür yaradılmış və Ermənistanın təcavüzkar mövqeyi ifşa edilmişdi [9]. Bütün bu addımlar öz bəhrəsini verməyə başlamış, Ermənistanın müdafiə naziri V.Sarkisyan Heydər Əliyevə müraciət edərək danışıqlar yolu ilə münaqişəni aradan qaldırmaq arzusunu bildirmişdi [4, s. 530].

Heydər Əliyev eyni zamanda erməni təcavüzünün qarşısını almaq üçün Naxçıvanın daxili məhud imkanlarının səfərbər edilməsi, bütün idarə və müəssisələrin, siyasi, ictimai təşkilatların, hər bir vətəndaşın Naxçıvanın müdafiəsinin təşkilinə, sosial-iqtisadi problemlərin həllinə cəlb edilməsi üçün yollar axtarırdı. Məhz onun təşəbbüsü sayəsində Naxçıvanın ağır, mürəkkəb günlərində 1992-ci il mayın 25-də Ali Məclisin Rəyasət Heyəti Naxçıvanın İnkişafı və Müdafiəsi Fondunun yaradılması haqqında qərar qəbul etdi. Bütün Naxçıvan əhalisinə, dövlət və təsərrüfat orqanlarına, təşkilatlara, vətəndaşlara Naxçıvanın inkişafı və müdafiəsi fondunun təşkilində iştirak etmək barədə müraciət edildi. Müvafiq müraciət həmçinin MR-in hüdudlarından kənarda yaşayan bütün azərbaycanlılara və türklərə də edilmişdi [4, s.534]. Fondun təşkil olunması, toplanacaq vəsaitin istifadəsinə nəzarət üçün Heydər Əliyevin sədrliyi ilə komissiya yaradılmışdı.

Heydər Əliyev Ermənistanın təcavüzündən ziyan çəkən əhaliyə, qaçqınlara, sərhəd döyüşlərində yarananlara hər cür yardımın göstərilməsi, onların ərzaq və tibbi xidmətlə təmin olunması ilə bağlı məsələlərin həlli ilə müntəzəm maraqlanır, müvafiq tədbirlər müəyyənləşdirirdi.

Heydər Əliyevin Rusiyanın Müdafiə Nazirliyi, Zaqafqaziya hərbi dairəsi və 75-ci diviziyanın komandanlıqları ilə apardığı danışıqlar nəticəsində diviziyanın ləğv edilməsi və onun bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında razılıq əldə edildi. Naxçıvan MR Ali Məclisin Rəyasət Heyətinin 25 iyun 1992-ci il tarixli iclasında Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin ləğvi və onun əsasında Azərbaycan Müdafiə Nazirliyi tərkibində müvafiq strukturun yaradılması zəruri hesab edildi [4, s. 542].

1992-ci il avqustun 18-də 75-ci diviziyanın əmlakının, silahlarının, hərbi texnikasının Azərbaycanın Milli Ordusunun 5-ci əlahiddə motoatıcı briqadasına verilməsi haqqında sənədlərin imzalanması ilə diviziyanın şəxsi heyəti Naxçıvanı tamamilə tərk etdi. Sənədlərin imzalanması mərasimində çıxış edən Ali Məclisin sədri Heydər Əliyev bu günü müstəqil Azərbaycanın və onun tərkib hissəsi olan Naxçıvan MR-in həyatında əlamətdar, tarixi gün adlandırmış və əmin olduğunu bildirmişdi ki, Azərbaycan silahlı qüvvələrinin Naxçıvanda yerləşən hissəsi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərindən dərk edəcək və sərəncamlarına keçəcək hərbi əmlakın, texnikanın saxlanılmasında, ondan səmərəli istifadə edilməsində böyük səy göstərəcək [10].

1992-ci il avqust-sentyabr aylarında həmçinin 41-ci sərhəd dəstəsinin ləğv edilməsi, onun bütün hərbi-texniki və təsərrüfat əmlakının Azərbaycan Respublikası 1-ci sərhəd dəstəsinə verilməsi barədə razılaşma əldə edilmiş və yerinə yetirilmişdi. 1992-ci il sentyabrın 29-da sərhəd dəstəsinin ləğvi və onun funksiyalarının, əmlakının Azərbay-

can Respublikası sərhəd dəstələrinə verilməsi haqqında sənədlərin imzalanması mərasimi keçirildi və elə həmin gün 41-ci sərhəd dəstəsinin sonuncu zabit və əsgərləri təntənəli şəkildə MR rəhbərləri və ictimaiyyətin nümayəndələri tərəfindən Naxçıvandan yola salındı [4, s.555-557].

Beləliklə, Heydər Əliyevin siyasi bəsirəti nəticəsində keçmiş sovet ordusunun və sərhəd qoşunlarının bütün hissələri tamamilə Naxçıvandan çıxarıldı. Bu zaman həmin hissələrin bütün hərbi və təsərrüfat əmlakı Azərbaycan Respublikasının ixtiyarına keçdi. Təxminən iki əsr müddətində xarici dövlətin Naxçıvanda yerləşmiş hərbi hissələrin muxtar respublika ərazisindən münaqişəsiz və qarşılıqlı anlaşma şəraitində çıxarılması o dövr üçün çox fenomenal hadisə idi və bu, yalnız Heydər Əliyevin xidmətləri sayəsində baş tutmuşdu. Halbuki qonşu Gürcüstandan sovet (rus) qoşunları yalnız 2007-ci ildə beynəlxalq danışıqlar və müqavilələr əsasında çıxarılmış, bəzi MDB ölkələrində, o cümlədən qonşu Ermənistanda hələ də qalmaqdadır.

Naxçıvan MR Ali Məclisinin Rəyasət Heyətinin «Naxçıvan MR-in müdafiəsinin və sərhədlərin qorunmasının təşkili haqqında» 1992-ci il 19 sentyabr tarixli qərarında Naxçıvan MR ərazisində uzun illər boyu yerləşən keçmiş SSRİ silahlı qüvvələrinin, sonra isə Rusiya Federasiyasının tabeliyində olan hərbi hissələrin ləğvi, onların sərəncamında olan hərbi-texniki sursatların, Azərbaycan xalqına, müstəqil Azərbaycan dövlətinə verilməsi, digər dövlətə məxsus hərbi qulluqçuların Naxçıvanın ərazisini tərk etməsi ədalətli, hüquqi, böyük tarixi əhəmiyyətə malik olan bir hadisə kimi qiymətləndirilmiş, eyni zamanda Naxçıvanda Azərbaycan Respublikası silahlı qüvvələrinin yaradılması nəzərə alınaraq Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin, Xalq Cəbhəsinin silahlı qüvvələrinin, bütün silahlı dəstələrinin buraxılması, əhalidə olan qeyri-qanuni silahların qaytarılması qərara alınmışdı [4, s. 553-555].

1992-ci il oktyabrın 9-da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının bir ili tamam oldu. Bu münasibətlə Naxçıvan şəhərində hərbi parad keçirilmiş və Heydər Əliyev əsgərlər və əhali qarşısında çıxış etmişdi. O, indiyədək Naxçıvan torpaqlarını cəsarətlə qorumuş bütün vətənpərvər Naxçıvan oğullarına, könüllü dəstələrə öz minnətdarlığını bildirərək, onların gördükləri işləri layiqincə qiymətləndirmiş və bəyan etmişdi ki, artıq Naxçıvanda nizami Milli Azərbaycan ordusunun hərbi hissələri mövcuddur. Bu hissələr lazımi gücə malikdirlər və Naxçıvan torpaqlarını müdafiə etməyə qadirdilər. Eləcə də, Naxçıvanın qonşu İran və Türkiyə ilə sərhədlərini mühafizə etmək üçün öz milli sərhəd dəstəmiz var. Ona görə də, bütün könüllü dəstələrə minnətdarlığımızı bildirməklə, onlara tövsiyə edirik ki, bundan sonra öz vətəndaşlıq vəzifələri ilə məşğul olsunlar. Torpaqlarımızın düşməndən müdafiəsini ancaq və ancaq Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda yaradılmış hissələri həyata keçirilməlidir [4, s. 561]. Lakin Heydər Əliyevin müdrik tövsiyələrinə, muxtar respublikanın ali hakimiyyət orqanının qərarlarına məhəl qoymayan Xalq Cəbhəsinin yerli rəhbərləri, xüsusən cəbhənin Ordubad rayon şöbəsi öz qanunsuz əməllərini davam etdirməkdə, o cümlədən silahlı dəstələr saxlamaqda davam edirdilər. Bir sıra hallarda Bakıdan idarə olunan, əsasən Heydər Əliyevə qarşı təsir vasitəsinə çevrilən bu qüvvələrin dinc yolla tərksilah edilməsi üçün bütün imkanlardan istifadə edilsə də, onlar muxtar respublikada sabitliyi pozmaqda, qeyri-qanuni əməllərə rəvac verməkdə davam edirdilər. 1992-ci ilin avqustunda Naxçıvanda siyasi çevrilişə cəhd edən, qanuni hakimiyyəti yıxmaq istəyən bu qüvvələr yalnız və yalnız bölgədə əmin-amanlığın, sabitliyin, vətəndaş həmrəyliyinin möhkəmləndirməsinə nail olan Heydər Əliyevin siyasi qətiyyəti və xalqın onu müdafiə etməsi nəticəsində öz məqsədlərinə çata bilmədilər.

Naxçıvanın müdafiəsinin təşkili, ordu quruculuğu prosesi, Heydər Əliyevin muxtar respublika rəhbəri kimi daim diqqət mərkəzində saxladığı məsələlərdən idi. Hərbi qüvvələrin təchizatı, orduya çağırış, muxtar respublika hakimiyyət orqanları ilə hərbi komandanlıq arasında əlaqələrin möhkəmləndirilməsi məsələləri Heydər Əliyevin bilavasitə iştirakı ilə keçirilmiş müşavirələrdə, iclaslarda müntəzəm müzakirə edilirdi. 1992-ci il noyabrın 10-da Heydər Əliyevin iştirakı ilə keçirilmiş müşavirədə Naxçıvanın müdafiəsi ilə bağlı bir sıra məsələlər, o cümlədən orduya çağırışla bağlı yaranmış problemlər müzakirə edildi. Heydər Əliyev və digər çıxış edənlər bu sahədə çox ciddi problemlərin olduğunu qeyd etdilər. Heydər Əliyev öz çıxışında göstərirdi ki, Naxçıvan ərazisi qorunmalı və saxlanılmalıdır. Bunun üçün Naxçıvanın güclü ordusu olmalıdır. Hər birimiz bilməliyik ki, bizim hər birimizin üzərində böyük məsuliyyət var. Heydər Əliyev bütün cavabdeh işçilərə bu sahədə dönüş yaratmaq üçün ciddi tədbirlər görməyi və qısa müddətdə problemin həllinə nail olmağı tapşırmışdı [4, s. 569].

Heydər Əliyev ermənilərin hücumlarına məruz qalmış kəndlərin, o cümlədən Sədərək kəndinin əhalisinin vəziyyətini daim diqqət mərkəzində saxlayaraq, kəndlərin təhlükəsizliyinin təmin olunması, əhalinin normal şəraitdə yaşaması üçün bütün imkanlardan istifadə edirdi.

1992-ci ilin dekabrında və 1993-cü ilin mayında Sədərəkdə Ermənistan nümayəndələri ilə görüşə gedərkən o, bu kəndin əhalisi ilə də görüşmüş, onların problemləri ilə maraqlanmışdı. Heydər Əliyev sədərəkliləri əmin etmişdi ki, biz bir qarış da olsa, torpağımızı əldən verməyəcəyik, nəyin bahasına olursa-olsun, özümüzü müdafiə edəcəyik, düşmənin qarşısını alacağıq [4, s. 570].

1993-cü ilin mayın 14-də Heydər Əliyev Ermənistan Respublikası Ali Sovet sədrinin birinci müavini A.Saakyanla görüşərək sərhəd məntəqələrində təhlükəsizliyin və sabitliyin təmin olunması məsələsini müzakirə etdi. Heydər Əliyev həmçinin dəmiryolu işinin, bütün kommunikasiya xətlərinin bərpası təklifini irəli sürmüş, müvafiq bəyannamə imzalamışdı.

Lakin Heydər Əliyevin muxtar respublikanın təhlükəsizliyi istiqamətində atdığı addımlar, xüsusən Ermənistanla imzalanmış son bəyannamə Azərbaycanın rəsmi dairələrində və mətbuat orqanlarında əsassız söz-söhbətlərə səbəb olmuş, o, separatçılıqda, Azərbaycanın milli maraqlarına qarşı çıxmaqda ittiham edilmişdi. Buna görə də, Heydər Əliyevin tapşırığı ilə Ali Məclisin mətbuat xidməti xüsusi məlumat yaymış və həmin görüşün son vaxtlar Naxçıvanın Ermənistanla bəzi sərhəd məntəqələrində yaranmış gərginliyi aradan qaldırmaq, sabitliyi təmin etmək zəruriliyindən irəli gəldiyini bildirmişdi. Eyni zamanda imzalanmış bəyannamənin məzmununu bilərəkdən təhrif olunduğu üçün Heydər Əliyevin tapşırığı ilə bəyannamə kütləvi informasiya vasitələrində çap olunmuşdu [4, s. 577-578].

Beləliklə, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri seçildikdən sonra Heydər Əliyev müdrik fəaliyyəti, böyük dövlətçilik təcrübəsi və xalqın ona olan sarsılmaz inamı və dəstəyi sayəsində bölgəni real erməni işğalından xilas etdi. Naxçıvanı Azərbaycana qaytardı. Muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsi, müdafiəsinin təşkili, rus qoşunlarının bölgədən qansız-qadasız, qarşılıqlı anlaşma şəraitində, bütün silah-sursatın, texnikanın, əmlakın Azərbaycana verilməsi şərti ilə çıxarılması və hərbi quruculuq sahəsində yorulmaz fəaliyyəti Naxçıvanı çox böyük fəlakətdən və faciələrdən qurtardı. Bacarıqlı dövlət xadimi və diplomat kimi Heydər Əliyevin Dağlıq Qarabağ və Naxçıvan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırması, münaqişənin əsl mahiyyəti haqqında informasiya vasitələrinə geniş və obyektiv məlumatlar verməsi də erməni təcavüzünün qarşısının alınmasında mühüm rol oynadı.

### *ƏDƏBİYYAT*

1. «Azərbaycan qəzeti», 2004, 16 may.
2.Azərbaycan Respublikası Milli Məclisinin Arxivi. F.2941, s.1a, iş 268.
3.İmranoğlu Kamran. Sədərək döyüşləri. Bakı, 1993.
4.Qayıdış. Bakı (1990-1993). Sənədlər toplusu. Bakı, 1993.
5.Qayıdış. (1990-1993). II nəşr. Bakı, 2008.
6.Naxçıvan yaşayır, döyüşür…, Bakı, 1992.
7.«Şərq qapısı» qəzeti, 1991, 10 sentyabr.
8.«Şərq qapısı» qəzeti, 1992, 11 yanvar.
9.«Şərq qapısı» qəzeti, 1992, 28 may.
10.«Şərq qapısı» qəzeti, 1992, 22 avqust.

**А.Г.ГАСЫМОВ**

### ЗАСЛУГА ГЕЙДАРА АЛИЕВА В ЗАЩИТЕ НАХЫВАНА ОТ АРМЯНСКОЙ АГРЕССИИ

В статье рассматривается многогранная деятельность Гейдара Алиева на посту Председателя Верховного Меджлиса Нахчыванской АР по защите автономной республики от агрессивных действий Республики Армении, обеспечению территориальной целостности Нахчыванской АР, да и всего Азербайджана безопасности ее населения.

Отмечается, что именно благодаря деятельности Гейдара Алиева по обеспечению безопасности Автономной Республики, организация её надежной защиты, бескровный. На основе взаимопонимания вывод русских войск из региона, успешное военное строительство спасли Нахчыван от ожидаемых его больших трагедий, в первую очередь от реальной армянской агрессии.

**A.G.GASIMOV**

### HAYDAR ALIYEV'S SERVICES IN PROTECTION OF NAKHCHIVAN FROM THE ARMENIAN AGGRESSION

In the article many sided activity of Haydar Aliyev in the post of the Chairman of Supreme Maylis of Nakhchivan AR for protection of the autonomous republic from the aggressive actions of the Republic of Armenia, for provision of territorial integrity of Nakhchivan AR, as well as for all Azerbaijan, for safety of her population is considered.

It noted that, due to Haydar Aliyev's activity for provision the republic's defense the organization of its security was realized. On the ground of mutual understanding eviction of Russian troops from the region, successful war constructions saved Nakhchivan from great tragedies, expected it first of all from a real Armenian aggression.

***Rəyçilər: t.e.n.C.Bəhramov, t.e.d.İ.X.Zeynalov.***

***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu «Heydər Əliyev elmi-tədqiqat» şöbəsinin 02 iyul 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***